## Müəllimlər üçün seminar

24-31 oktyabr tarixlərində Bakı şəhərinin 46 və 225 saylı orta məktəblərində Nəsimi, Səbail, Nərimanov və Yasamal rayonlarının orta məktəblərində təşkil edilmiş metodiki kabinetlərdə vergilər mövzusunda tədrisi həyata keçirən 36 müəllim üçün Bakı Şəhər Vergilər Departamentinin Vergi ödəyicilərinə xidmət idarəsinin əməkdaşları Uğur Qasımov və Taleh Mustafayev tərəfindən seminar-məşğələlər keçirilmişdir. İştirakçılara vergi anlayışı, vergilərin əhəmiyyəti, vergilərin müəyyən edilməsinin əsasları, tarixi, vergi ödəyicilərinin və onlara məxsus təsərrüfat subyektlərinin (obyektlərinin) uçotu qaydaları, Azərbaycanda tətbiq edilən vergilər, eləcə də vergi ödəyicilərinə göstərilən elektron xidmətlər və bu sahədəki yeniliklər barədə məlumatlar verilmiş, suallar cavablandırılmışdır.